# Nurlu əməllərin işığında





Xalqımızın qəlbində özlərinə əbədi abidə ucaltmış tarixi şəxsiyyətlərimiz – H.Z.Tağıyev, A.M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov, İ.Hacınski, Aşurbəyovlar və Dadaşovlar kimi milyonçuların xeyirxah əməlləri heç zaman unudulmur.

Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Bakı milyonçusu, xeyriyyəçi Ağa Musa Nağıyevin xeyirxah əməllərindən bəhs edən "Nurlu əməllərin işığında" kitabının təqdimat mərasimi keçirilmişdir. Tədbiri AYB-nın sədrinin müşaviri Rauf Aslanov açmış və AYB-nın sədri Anarın salamını tədbir iştirakçılarına çatdırmışdır.

Ağa Musa Nağıyev adına "Milli dəyərlərin qorunması" ictimai birliyinin sədri, AQC-nın sədr müavini, məşhur neft milyonçusu Ağa Musa Nağıyevin nəvəsi Dilarə Ağamusa Nağıyeva-Muxtarova "Nurlu əməllərin işığında" kitabında xeyriyyəçi Bakı miyonçuları haqqında arxiv materialları əsasında dəqiq materiallar vermişdir.

AMEA-nın Ədəbiyyat İnstitutunun şöbə müdiri professor Asif Rüstəmli XIX əsrin sonları, XX əsrin əvvəllərində Bakının tarixi haqqında kitab yazmış Dilarə Nağıyevanın fəaliyyətini yüksək qiymətləndirmişdir. A.Rüstəmli vurğulamışdır ki, Ağa Musa Nağıyevin tikdirdiyi binalar öz gözəlliyi və möhtəşəmliyi ilə seçilir. Ağa Musa hər il müxtəlif ali təhsil ocaqlarında oxuyan tələbələrin təhsilinə xeyli pul ayırmışdır. O vərəmlə mübarizə üzrə "Qafqaz Cəmiyyəti"nin sədri və aktiv iştirakçısı olmuşdur. Bu insanın varidatının ümumi miqdarı 413 mln. rubl məbləğində olmuşdur. A.M.Nağıyev kapitalını o dövrdə cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun dünyagörüşünün, ümumi mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf etməklə bərabər, bina tikintisinə yönəltmişdir. Dilarə Nağıyevanın bu kitabı tarixçilərimiz üçün ən dəyərli tədqiqat əsərlərindəndir.

Ağa Musa Nağıyevin nəticəsi, AMEA-nın Ədəbiyyat İnstitutunun elmi işçisi Ofeliya Nağıyeva bildirmişdir ki, Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev və Şəmsi Əsədullayev bir-biri ilə quda idilər. Dilarə Nağıyeva Bakı milyonçularını üzə çıxarmaqla tariximizin qaranlıq məqamlarına işıq salmışdır.

Azərbaycan Qadınlar Cəmiyyətinin sədri Bahar Qasımova çıxışında onu da vurğuladı ki, I Avropa Oyunları başlamaq üzrədir. Biz xarici qonaqlara öz milli-mənəvi dəyərlərimizi göstərməklə yanaşı, qədim tarixə malik olduğumuzu bir daha nümayiş etdirməliyik.

ADPU-nın dosenti əməkdar müəllim, Beynəlxalq Rəsul Rza mükafatçısı Oqtay Rza A.M.Nağıyev haqqında, ümumiyyətlə, Bakı milyonçuları olan xeyriyyəçi insanlar haqqında beş kitab yazmış Dilarə Nağıyevanın fəaliyyətini yüksək qiymətləndirmiş və şeir söyləmişdir.

Qafqaz Media ictimai birliyinin sədri Hacı Azadə Taleh, Azərbaycan Dillər Universitetinin professoru şairə Aidə İbrahimova, xeyriyyəçi iş adamları Gülnarə Əhmədova, Xatirə Ağayeva, Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın anası təcrübəli pedaqoq-alim Rəfiqə Əsgərova, qəzəlxan şairə Gülarə Munis, istedadlı müğənni Elnarə Xəlilova, Azərbaycan Rəssamlar İttifaqının fəxri üzvü, Almaniyada yaşayan həmyerlimiz Əşrəf Heybətov və başqaları 98 tarixi bina tikdirmiş, xalqın milli dirçəlişinin oyanmasında böyük xidmətləri olmuş Ağa Musa Nağıyevin adının əbədiləşdirilməsinin vacibliyindən danışmışlar. Şair Cığatelin və 191 nömrəli tam orta məktəbin məzunu Murad Əliyevin söylədikləri şeirlər alqışlarla qarşılanmışdır. Bir qrup ziyalıya "Ağa Musa Nağıyev zirvəsi" diplomu təqdim edilmişdir.

Sonda AMEA-nın Ədəbiyyat İnstitutunun dissertantı Dilarə Nağıyeva tədbir iştirakçılarına təşəkkürünü bildirmişdir.

**Rauf İLYASOĞLU,**
**"Respublika".**